# Dünyanın ixtisas hazırlığı üzrə ən yaxşı universitetlərinin reytinqi açıqlanıb

**Oruc MUSTAFAYEV,** *"Azərbaycan müəllimi"*
o.mustafayev@muallim.edu.az

Böyük Britaniyanın nüfuzlu Quacquarelli Symonds (QS) şirkəti dünyanın ixtisas hazırlığı üzrə ən yaxşı universitetlərinin sayca 6-cı reytinq cədvəlini *(QS World University Rankings by Subject 2016)* açıqlayıb. Reytinq tərtib olunarkən bütün dünya üzrə 4226 ali təhsil müəssisəsi təhlil olunub, onlardan 945-i siyahıya daxil olub. Tədqiqat gedişində 113 milyondan çox sitatgətirilmə təhlil olunub, 15530 tədris proqramının təminatı yoxlanılıb. Reytinqin nəticələri 44428 işəgötürən və akademik cəmiyyətin 76793 nümayəndəsinin ekspert rəyinə, eləcə də 28,5 milyon tədqiqat işinin təhlilinə əsaslanır.

Dünyanın ən yaxşı universitetləri 42 ixtisas istiqamətləri üzrə qiymətləndirilib. Tərtibçilər ali məktəbləri qiymətləndirərkən universitetlərin akademik aləmdə nüfuzu, işəgötürənlərin rəyləri, müəllimlərin və tələbələrin Scopus/Elsevier biblioqrafiya verilənlər bazasından əldə olunmuş məlumatlar əsasında elmi məqalələrindən sitatgətirilmə indeksini əsas götürüblər. Amerikanın Massaçusets Texnologiya İnstitutu (Massachusetts Institute of Technology- MIT) və Harvard Universiteti (Harvard University) builki reytinqdə 24 ixtisas hazırlığı üzrə ən yaxşı ali məktəblərin siyahısına başçılıq edirlər. Adıçəkilən ali məktəblərin hər biri ayrılıqda 12 ixtisas hazırlığı üzrə reytinq cədvəllərinə liderlik edirlər. Məsələn, Harvard Universiteti "Antropologiya", "Sosial siyasət və administrasiya", "Psixologiya", "Hüquq" kimi ixtisaslarda dünya üzrə birincidir. Massaçusets Texnologiya İnstitutu isə "Arxitektura", "Linqvistika", "İqtisadiyyat" fənlərində liderlik edir. Böyük Britaniyanın Oksford Universiteti (University of Oxford) "İngilis dili və ədəbiyyat", "Müasir dillər", "Coğrafiya", Kembric Universiteti (University of Cambridg) "Riyaziyyat", "Arxeologiya" kimi fənlərdə başlıca mövqeni tutur.

Builki reytinqə 28 elm sahəsi üzrə Rusiyanın 17 universiteti daxil olub. M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (MDU) 23 ixtisas üzrə dünyanın ən yaxşı ali məktəbləri siyahısına düşüb. "QS World University Rankings by Subject" dünya reytinqinin versiyasına görə, MDU "Linqvistika" sahəsində 17-ci, "Fizika və astronomiya" sahəsində 27-ci, "Riyaziyyat" nominasiyasında 33-cü yeri tutub. MDU "Arxeologiya", "Müasir dillər", "Fəlsəfə", "Kompüter elmləri və informasiya texnologiyaları", "Kimya", "Siyasi və beynəlxalq əlaqələr" üzrə ilk 100-lükdə yer alıb. "MDU bütün elmi istiqamətlər üzrə reytinqə daxil olmaqla çox gözəl nəticələr göstərib. Bu, uğurdur. Lakin bu, həm də universitetin apardığı nəhəng işdir. Biz böyük elmi layihələrin reallaşdırılması sayəsində öz mövqeyimizi möhkəmləndirə bilmişik. Ənənəvi olaraq hesab edirlər ki, Rusiya humanitar sahədə zəif nəticələrə malikdir. Lakin biz bunun düzgün olmadığını göstərdik", - deyə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik B.Sadovniçi bildirib. Qeyd edək ki, MDU kimya, mühəndislik, fəlsəfə, siyasət, arxeologiya da daxil olmaqla daha 9 elm sahəsi üzrə top-100-lükdə yer alıb. Sankt-Peterburq Dövlət Universiteti də öz mövqeyini yaxşılaşdırıb. Bu ali məktəb dağ-mədən və faydalı qazıntılar hasilatı üzrə 26-cı yerdə qərarlaşıb, eləcə də linqvistika sahəsində ən yaxşı 100 ali məktəb sırasında yer alıb. Digər ali məktəblərdən Novosibirsk Dövlət Universiteti, "MİFİ" Milli Nüvə Tədqiqatları Universiteti də top-100-lükdə yer alıb. Rusiyanın Təhsil və Elm Nazirliyi MDU və Sankt-Peterburq Dövlət Universitetinin QS reytinqində uğurla təmsil olunmasını yüksək qiymətləndirib. Rusiya təhsil və elm nazirinin müavini Aleksandr Povalenko qeyd edib ki, son reytinqdə bir sıra ixtisas istiqamətləri üzrə uğurlu nəticələr göstərmiş ali məktəblər Rusiya universitetlərinin dünya miqyasında rəqabətqabiliyyətliliyinin artırılması üzrə hökumət layihəsinin (5-100) iştirakçılarıdırlar. Onun sözlərinə görə, getdikcə sözügedən layihənin daha çox iştirakçısı olan ali məktəblər dünya reytinqlərində yer alır. QS-in Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə icraçı direktoru Zoya Zaytsevanın sözlərinə görə, Rusiyanın daha çox ali məktəbinin QS reytinqlərində yer alması sevindiricidir. Bu o deməkdir ki, universitetlər düzgün yoldadırlar, onlar daim özlərinin beynəlxalq miqyasda tanınmasını yaxşılaşdırır, akademik birliyin ekspertləri ilə səmərəli iş qurur və öz elmi uğurlarını dünyaya daha düzgün çatdırmağa çalışırlar. Biz isə 20-30 il əvvəlki vəziyyəti əks etdirən məlumatları deyil, reallığı göstərən daha dəqiq məlumatları toplayırıq.

Türkiyənin ali məktəbləri də dünyanın ən yaxşı universitetləri arasında yer ala biliblər. Orta Doğu Texnik Universiteti ümumilikdə 12 ixtisas hazırlığı sahəsində dünyanın seçilmiş ali məktəbləri arasına daxil olaraq Türkiyəni reytinqdə ən çox təmsil edən universitet olub. Ötən reytinqlərə 10 elm sahəsi ilə daxil olan ODTU builki sıralamada elm sahələrinin sayını 12-yə çatdıran yeganə türk ali məktəbi olub. Türkiyəni reytinqdə İstanbul Texnik Universiteti 8, Bilkənd Universiteti 5, Boğaziçi Universiteti 4, Hacettepe Universiteti 2, Ankara, İstanbul, Koç universitetləri hərəsi 1 universitetlə təmsil ediblər. Ayrıca olaraq ODTU İstanbul Texnik Universiteti ilə yanaşı mineral və dağ-mədən mühəndisliyi sahəsində dünyanın 100 universiteti siyahısına daxil olublar. İstanbul Texnik Universitetinin rektoru, professor-doktor Mehmet Karaca rəhbəri olduğu ali məktəbin dünya reytinqində layiqli yer tutmasını çox önəmli hadisə adlandırıb. "Hədəfimiz dünyanın 50 ən yaxşı universiteti arasında yer almaqdır. İTU tədqiqatlar aparan, bir sıra ilklərə imza atmış universitetdir. Akademik və elmi inkişaf universitet üçün hər zaman öncül olub. 50 ilə 100 ən yaxşı universitet arasına daxil olan İTU istər Türkiyədə, istərsə də dünya səviyyəsində mühəndislik elminin təhsildə önəmli rol oynadığını göstərir. Universitet hər zaman öz qarşısında mühəndislik və texnoloji sahələrdə ən yaxşı 50 dünya universiteti arasında yer almağı hədəf qoyub. Dünyanın ən yaxşıları arasında daxil olmağı bacarmış bütün universitetlərimizi təbrik edirəm. Bu sıralamada ölkəmizdən nə qədər çox universitet yer alarsa bir o qədər qürur duyarıq!".

Baxmayaraq ki, reytinqdə ABŞ və Böyük Britaniya ali məktəbləri liderlik edirlər, keyfiyyətli ali təhsil təqdim edən ölkələrin sayı artmaqdadır. Avstriya, Cənubi Afrika, Finlandiya, Braziliya, Çin və İsveç ayrı-ayrı ixtisas istiqamətləri üzrə reytinq sıralamalarında ilk 10-luqlarda yer alıblar. Dünyanın ixtisas hazırlığı sahəsində ən yaxşı universitetlərinin reytinq vəziyyəti ilə *www.topuniversities.com* səhifəsindən daha yaxından tanış olmaq olar.

Qeyd edək ki, QS Quacquarelli Symonds 1990-cı ildən ali təhsil sahəsində və biznes sektorunda nüfuzlu ekspert qrupudur. QS World University Rankings-in ixtisas hazırlığı istiqamətləri üzrə illik reytinqi işəgötürənlərə, tələbələrə, valideynlərə və müəllimlərə dünya üzrə hansı universitetin keçilən hər bir fənn üzrə ən yaxşı olmasına dair tam və ən dolğun, aktual məlumatlar imkanı verir.

| İxisas | Qalib universitetlər | Ölkələr |
|---|---|---|
| 1. Mühasibat uçotu və maliyyə | Harvard Universiteti | ABŞ |
| 2. Kənd və meşə təsərrüfatı | Vageningen Universiteti | ABŞ |
| 3. Antropologiya | Harvard Universiteti | ABŞ |
| 4. Arxeologiya | Kembric Universiteti | Böyük Britaniya |
| 5. İncəsənət və dizayn | Kral İncəsənət Universiteti | Böyük Britaniya |
| 6. Biologiya elmləri | Harvard Universiteti | ABŞ |
| 7. Biznes və menecment | Harvard Universiteti | ABŞ |
| 8. Kimya | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 9. Kommunikasiya və kütləvi informasiya vasitələri | Cənubi Kaliforniya Universiteti | ABŞ |
| 10. Hesablama texnikası | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 11. Stomatologiya | Honkonq Universiteti | Honkonq |
| 12. Tədqiqatların işlənməsi | Harvard Universiteti | ABŞ |
| 13. Yerin və Dünya okeanının tədqiqi | Sürix Ali Texnik Məktəbi | İsveçrə |
| 14. İqtisadiyyat və ekonemetrika | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 15. Təhsil | London Universitet Kollecinin Təhsil İnstitutu | Böyük Britaniya |
| 16. Mühəndislik işi və praktika | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 17. Tikinti konstruksiyaları mühəndisliyi işi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 18. Elektronika mühəndisliyi işi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 19. Mexanika mühəndisliyi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 20. Dağ-mədən sənayesi və faydalı qazıntıların hasilatı mühəndisliyi | Kolorado Dağ Məktəbi | ABŞ |
| 21. İngilis dili və ədəbiyyatı | Oksford Universiteti | Böyük Britaniya |
| 22. Ətraf mühitin tədqiqi | Berkli Kaliforniya Universiteti | ABŞ |
| 23. Coğrafiya | Oksford Universiteti | Böyük Britaniya |
| 24. Tarix | Oksford və Kembric universitetləri | Böyük Britaniya |
| 25. Hüquq | Harvard Universiteti | ABŞ |
| 26. Linqvistika | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 27. Materialşünaslıq | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 28. Riyaziyyat | Kembric Universiteti | Böyük Britaniya |
| 29. Tibb | Harvard Universiteti | ABŞ |
| 30. Müasir dillər | Oksford Universiteti | Böyük Britaniya |
| 31. Tibb bacısı işi | Pensilvaniya Universiteti | ABŞ |
| 32. İncəsənətin praktik növləri | Culyard Məktəbi | ABŞ |
| 33. Farmakologiya və farmasevtika | Harvard Universiteti | ABŞ |
| 34. Fəlsəfə | Pittsburq Universiteti | ABŞ |
| 35. Fizika və astronomiya | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 36. Siyasət və beynəlxalq münasibətlər | Harvard Universiteti | ABŞ |
| 37. Psixologiya | Harvard Universiteti | ABŞ |
| 38. Sosial siyasət və administrasiya işi | Harvard Universiteti | ABŞ |
| 39. Sosiologiya | Harvard Universiteti | ABŞ |
| 40. Statistika və əməliyyatların tədqiqi | Massaçusets Texnologiya İnstitutu | ABŞ |
| 41. Baytarlıq | Kaliforniya Universiteti , Devis | ABŞ |
| 42. Arxitektura /tikinti mühiti | Massaçusets Texnologiya İnstitutu | ABŞ |


*Harvard Universiteti*



*Massaçusets Texnologiya İnstitutu*


*Kaliforniya Berkli Universiteti*